AZƏRBAYCAN RESPUBLİKASI
ENERGETİKA NAZİRLİYİ





# YARADILMA TARİXİ:

Azərbaycan Respublikasının Energetika Nazirliyi Azərbaycan Respublikasının Prezidentinin 22 oktyabr 2013-cü il tarixli 3 nömrəli Sərəncamı ilə yaradılmışdır. Bundan əvvəl Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi Azərbaycan Respublikasının Prezidentinin 6 dekabr 2004-cü il tarixli 150 nömərli Fərmanı ilə, Yanacaq və Energetika Nazirliyi isə Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2001-ci il tarixli 458 nömrəli Fərmanı ilə yaradılmışdır.

# MƏQSƏDİ:

Azərbaycan Respublikasının Energetika Nazirliyi yanacaq-energetika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Yanacaq-energetika sahəsi “Energetika haqqında” Azərbaycan Respublikasının Qanunu ilə energetika sahəsində müəyyən edilmiş fəaliyyətdən ibarətdir.



# FƏALİYYƏT İSTİQAMƏTLƏRİ:

Nazirlik müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir, enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi ilə bağlı tədbirlərin həyata keçirilməsini və bu sahədə dövlət maraqlarının qorunmasını təmin edir, “Energetika haqqında”, “Elektroenergetika haqqında”, “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” və “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda və qaydada nəzarəti həyata keçirir.

# SAHİBKARLIĞIN İNKİŞAFI İLƏ BAĞLI XİDMƏT SAHƏLƏRİ:

Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 3 nömrəli əlavəsi - “Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı”nda qeyd edilən İxrac nəzarətinə düşən malların ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı və tranziti üçün icazənin, İxrac məqsədli neft-qaz fəaliyyəti üçün xüsusi iqtisadı rejimin tətbiqi haqqında şəhadətnamənin, Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinə icazənin, Elektrik enerjisinin istehsalına, paylanmasına, ixrac və idxal edilməsinə icazələrin və digər növ icazələr də daxil olmaqla 17 növ icazənin verilməsi xidməti Energetika Nazirliyi tərəfindən həyata keçirilir. İcazələrin alınması üçün tələb olunan sənədlərin siyahısını 7 saylı Bakı “ASAN xidmət” mərkəzindən əldə etmək mümkündür. Həmçinin tələb olunan sənədlər haqqında məlumat və yarana biləcək sualların ətraflı cavablandırılması həmin mərkəzdə fəaliyyət göstərən əməkdaşlar tərəfindən təmin edilir. Bütün növ icazələr qanunvericiliyin tələblərinə uyğun olaraq ərizənin qeydiyyata alındığı tarixdən 7 iş günü ərzində verilir. Bildiririk ki, sahibkarlığın inkişafının stimullaşdırılması üçün sahibkarlıq fəaliyyətinə icazələrin verilməsində əlverişli biznes-mühitin yaradılması məqsədilə sahibkarlıq fəaliyyətinə icazələrin “ASAN xidmət” mərkəzi vasitəsilə verilməsi şəffaflığın daha da artırılmasını, onların verilmə prosesinin sadələşdirilməsini və asanlaşdırılmasını, həyata keçirilən fasiləsiz xidmətlərdən vətəndaşların rahat, sərbəst və maneəsiz istifadə etmələrini təmin etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİNİN İKİ ALT QURUMU VAR:

1. Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında bərpa olunan Enerji Mənbələri Dövlət Agentliyi







AZƏRBAYCAN RESPUBLİKASI
ENERGETİKA NAZİRLİYİ



012-598-16-53/54
012-598-16-55
974

minenergy@minenergy.gov.az

Bakı şəhəri, Ü.Hacıbəyli, 84
(Hökumət evi),
AZ1000- Hökümət evi.